# Milli qürur və qələbə tariximizdə əbədi yer tutan döyüşlər

**2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat nəticəsində regionda yeni gərginlik mərhələsi başlandı.**

Bu döyüşlər yalnız hərbi aspektdən deyil, həm də siyasi, diplomatik və informasiya cəbhələrində əhəmiyyətli hadisələrlə yadda qaldı. Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən hərbçilərimizin qəhrəmanlığı, cəmiyyətin nümayiş etdirdiyi milli həmrəylik və beynəlxalq aləmdə məsələyə göstərilən münasibət Tovuz döyüşlərini ölkəmizin müasir tarixi üçün xüsusi önəmli hadisələrdən birinə çevirdi.

**(davamı 12-ci səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Bu gün Azərbaycanın müasir hərb tarixində xüsusi yer tutan Tovuz döyüşlərinin növbəti ildönümüdür. Ermənistanın təxribatlarına qarşı ordumuzun göstərdiyi rəşadətli müqavimətlə yadda qalan bu döyüşlərdən 5 il keçir. Erməni təxribatının qarşısını Azərbaycan Ordusu dərhal və qətiyyətlə alaraq düşmənə ağır zərbələr endirib. Azərbaycan əsgərinin peşəkarlığı və vətənpərvərliyi nəticəsində Tovuz döyüşləri ölkəmizin hərb tarixinə zəfərlə nəticələnən mühüm hadisə kimi düşüb. Ermənistan tərəfi bu döyüşlərdə ciddi itkilərə məruz qalıb - 100-dən çox hərbçisi məhv edilib, onlarla hərbi obyekt sıradan çıxarılıb. Təəssüf ki, bu döyüşlər zamanı Azərbaycan bir sıra igid övladları da şəhid olub. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynalov, gizir Yaşar Babayev, baş çavuş Vüqar Sadıqov, çavuş Elçin Mustafazadə, çavuş Nazim İsmayılov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov Vətən uğrunda şəhidlik zirvəsinə ucalıblar. Bundan əlavə, ermənilərin Tovuzun Ağdam kəndinə atdığı mərmilərdən biri yaşayış evinə düşərək 76 yaşlı mülki şəxs - ev sahibi Əziz Əzizovun şəhid olmasına səbəb olub. Bu fakt bir daha göstərdi ki, Ermənistan hərbi təxribatla yanaşı, mülki əhalini də hədəf almaqdan çəkinmir. Döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaqda çətinlik çəkmir.

2020-ci il iyulun 12-də döyüşlərin ilk günü Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutub və hücuma keçməyə cəhd göstəriblər. Lakin Azərbaycan Ordusunun gördüyü qəti və adekvat tədbirlər nəticəsində düşmənə ağır zərbə vurulub, qarşı tərəf ciddi itkilər verərək geri çəkilməyə məcbur edilib. Beləliklə, Ermənistan hərbi birləşmələrinin Ordumuzun mövqelərini ələ keçirmək cəhdləri tamamilə iflasa uğramış və Azərbaycan heç bir ərazi itkisinə məruz qalmışdır. Qarşı tərəf isə canlı qüvvə baxımından xeyli sayda itki verib.

Tovuz istiqamətində vəziyyət iyulun 13-nə keçən gecə də gərgin olaraq qalıb. Gecə saatlarında artilleriya, minaatan və tanklardan istifadə ilə intensiv döyüşlər baş verib, Azərbaycan Ordusunun dəqiq zərbələri nəticəsində düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsinin ərazisindəki avtomobil texnikası və canlı qüvvəsi məhv edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Təhlükəsizlik Şurasının iclası olub. Eyni gün Azərbaycan Ordusu düşmənin təxribatlarının qarşısını almaq məqsədilə cəza xarakterli tədbirlər həyata keçirib. Lakin Ermənistan tərəfi verdiyi itkiləri ictimaiyyətdən gizlətməyə çalışıb. Həmin gün ərzində də bölgədə, xüsusilə Tovuz istiqamətində ağır artilleriya atəşi davam edib, Ermənistan ordusu tərəfindən Tovuz rayonunun Dondar Quşçu və Ağdam kəndləri top atəşinə tutulub.

İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüşlər davam edib. Düşmənin fəallığının qarşısını almaq üçün həyata keçirilən cəza xarakterli tədbirlər nəticəsində Ermənistan ordusuna məxsus müxtəlif növ hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, arxa ehtiyatlar və canlı qüvvə məhv edilib. Bir gün sonra həyata keçirilən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinə aid döyüş texnikası və əlavə bir bölüyün dayaq məntəqəsi tamamilə məhv edilib. Düşmənin cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, snayper tüfəngləri, minaatanlar və digər artilleriya vasitələri ilə həyata keçirdiyi atəşə qarşı qoşunlarımız dərhal effektiv cavab verərək düşməni susdurub. Tovuz istiqamətində mövqelərimizə və yaşayış yerlərinə atəş açan düşmənin uzunmüddətli atəş nöqtələri və dayaq məntəqələri dağıdılıb.

İyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc paytaxtımızda yürüş təşkil edərək Azərbaycan Ordusuna dəstək nümayiş etdirib. Növbəti günlərdən etibarən, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edib. Həmin günün axşamında döyüşlərin intensivliyi azalmış və cəbhə xəttində nisbətən sakitlik yaranıb. İyulun 15-də toqquşmalar tamamilə zəifləsə də, ertəsi gün - iyulun 16-sı səhər yenidən döyüşlər qızışıb. Azərbaycan Ordusunun bir əsgəri qəhrəmancasına şəhid olmuş, qarşı tərəf isə canlı qüvvə və texnika baxımından ciddi itkilər vermişdir. Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşıb.

Tovuz döyüşləri Azərbaycanın hərb tarixində dönüş nöqtəsi oldu. Həmin döyüşlər xalqın qələbə inamını özünə qaytardı, eyni zamanda, gələcəkdə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına, regional sabitlik və təhlükəsizliyə xidmət edən əhəmiyyətli mərhələ oldu. İki ay sonra başlayan İkinci Qarabağ müharibəsi nəticəsində Ordumuz parlaq zəfərlər qazandı və uzun illər işğal altında olan torpaqlarımız işğaldan azad edildi. Bu uğurlar sayəsində 2023-cü ildə Xankəndi və ətraf ərazilər separatizmdən xilas olunaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edildi. Tarixi nailiyyətlər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi və müdrik rəhbərliyi ilə mümkün oldu. Ötən illərin çətin sınaqları və mübarizələri Azərbaycan xalqının həmrəyliyi və güclü ordusunun sayəsində öz layiqli nəticəsini verdi. Beləliklə, Azərbaycan Ordusunun şanlı qələbələri və Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa edildi. Bu, xalqımızın milli qürur və qələbə tarixində əbədi yerini tutdu.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2025.- 12 iyul (№ 141).- S.1;12.